*“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 4 oktyabr 2014-cü il | № 76 (1893) | Qiyməti 25 qəpik

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir.

Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 oktyabr 2014-cü il.

## Qurban bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi müqəddəs Qurban bayramı münasibəti ilə səmimiqəlbdən təbrik edirəm.

Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub saxlanılması, sabitlik, inkişaf, birlik, vicdan azadlığı və tolerantlığın hökm sürməsinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Əsas amalı həmrəylik, dostluq, halallıq, bərabərlik və mərhəmət olan Qurban bayramı respublikamızda bütün sahələrdə əldə olunmuş yüksək nailiyyətlərlə qeyd olunur.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında beynəlxalq nüfuzunu və iqtisadi qüdrətini artıran ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi daha da yaxşılaşdırılmış, respublikamızın müdafiə qüdrətinin artırılması sahəsində böyük uğurlara nail olunmuş, müstəqilliyimiz daha da möhkəmlənmişdir.

Torpaqlarımızın işğaldan azad olunması üçün siz silah və texnikanın sirlərini dərindən mənimsəyərək bilik və bacarığınızı artırmalı, ata və babalarımızın qəhrəmanlıq nümunələrindən bəhrələnərək döyüş qabiliyyətinizi daha da gücləndirməlisiniz.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**

## Həqiqi hərbi xidmətə çağırış başlayıb

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, 2014-cü il oktyabrın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.

AzərTAc xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaqdır.

Sərəncama əsasən, 1996-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1979-1995-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Sərəncama uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2014-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Qeyd edək ki, Prezident İlham Əliyev sentyabrın 10-da Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

## AŞPA-nın sessiyasında Ermənistanın işğalçılıq siyasətinin nəticələrindən bəhs edilib

Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında keçirilən sərbəst dinləmələr zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Sahibə Qafarova çıxış edərək bildirib ki, son vaxtlar dünyada bir sıra maraqlı, eyni zamanda, narahatlıq doğuran hadisələrin yaşandığı müşahidə edilir. Bunlar arasında ekstremizm meyillərinin güclənməsini, bəzi dövlətlərin başqa dövlətlər tərəfindən işğalçılıq siyasətinə məruz qalmasını, bəzilərinin isə terrorçu təşkilatlar tərəfindən hədəfə alınmasını görürük. Minlərlə insanın ölümü ilə müşahidə olunan bu faciəvi hadisələr müasir dövrümüzdə təhlükəsizlik məsələlərinin nə qədər böyük aktuallıq kəsb etdiyini və insan tələfatına qarşı hədələrin aradan qaldırılması, onlarla mübarizədə hamımızın birgə addımlar atmağımızın zəruriliyini ortaya qoyur. Vəziyyətin bugünkü dramatik hala gəlib çatmasında siyasi dairələr tərəfindən bir çox hallarda terrora, ekspansiya tədbirlərinə qarşı sərt reaksiyanın ortaya qoyulmaması, əksinə, proseslərə qeyri-adekvat yanaşılması, beynəlxalq münasibətlərdə müşahidə edilən çoxstandartlılıq kimi mənfi hallara şərait yaradır.

Azərbaycan 20 ildən artıqdır ki, qonşu dövlətin işğalçılıq siyasətindən əziyyət çəkir. BMT-nin Təhlükəsizlik Şurası işğal altında olan torpaqların qeyd-şərtsiz geri qaytarılması ilə bağlı 4 qətnamə qəbul edib, dünyanın bütün beynəlxalq təşkilatları Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və Ermənistan dövlətinin işğalçılıq siyasəti həyata keçirməsi faktını təsdiq edib. Amma bu günə qədər də münaqişənin yekun həllinə nail olunması, beynəlxalq qətnamələrin yerinə yetirilməsi üçün hər hansı bir addım atılmayıb. Əvəzində, Ermənistan dövləti işğalçılıq siyasəti həyata keçirməsinə baxmayaraq, bir sıra hallarda dəstəklənir. Bu isə nəticə etibarilə bölgədə münaqişə ocağının tamamilə sönməsinə imkan vermir. İyul ayının sonları, avqust ayının əvvəllərində erməni diversant kəşfiyyat qrupunun cəbhə xəttində törətdiyi təxribatlar və ondan sonra yaşananlar müharibə ehtimalını yenidən gündəmə gətirdi.

Azərbaycan sülhsevər dövlətdir. Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına kifayət qədər ciddi töhfələr verib və verməkdədir. Sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməlinin qoyulması ilə bu addımların davamlı olduğunu bir daha təsdiqlədi. Amma həmin ərəfədə Avropa Parlamenti ölkəmizlə bağlı qeyri-obyektiv, bəzi qərəzli siyasətçilərin şəxsi mülahizələrinə söykənən bir qətnamə qəbul etdi. Ondan bir müddət əvvəl qohumlarının məzarlarını ziyarət etmək məqsədilə öz dədə-baba torpaqlarına gedən üç azərbaycanlı Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldü. Onların biri gördüyü işgəncələrdən sonra vəfat etdi. Digər iki azərbaycanlı isə qondarma ittihamlarla hələ də əsirlikdə saxlanılır və Ermənistan dövləti onları geri qaytarmaqdan imtina edir. Amma hər kəs susur. Bu ədalətsizliyə heç kim etiraz etmir. Buna səbəb nədir? Cavab məlumdur: ikili standartlar mövqeyindən yanaşma. Məhz bu ikili standartlara görə də bu gün dünyada baş verən fəlakətlərin, qırğınların sayı durmadan artır.

**AzərTAc**

## Hərbi əsir A.İnciqulyanla bağlı təbliğat kampaniyası Ermənistanın xüsusi xidmət orqanları tərəfindən ssenariləşdirilib

Ermənistan kütləvi informasiya vasitələri 2013-cü ilin avqust ayında qoşunların təmas xəttində hərbçilərimiz tərəfindən saxlanılan və cari ilin avqust ayında Azərbaycan tərəfindən üçüncü ölkəyə təhvil verilən hərbi əsir Akop İnciqulyanın Yerevana geri qayıtması barədə birtərəfli qaydada, faktları təhrif etməklə və erməni ictimaiyyətini çaşdıran, təəccüb və təəssüf doğuracaq məlumatlar yayıblar.

Müdafiə Nazirliyi bildirir ki, A.İnciqulyan şüurlu surətdə döyüş postunu könüllü tərk edərək silahı ilə birlikdə Azərbaycan həbçilərinə təslim olduqdan sonra ona qarşı heç bir təzyiq və təsir göstərilmədiyini, Ermənistana geri qayıtmayacağını və üçüncü ölkədə yaşamaq istədiyini dəfələrlə bəyan etmişdir.

İkincisi, A.İnciqulyan Cenevrə Konvensiyasının tələbləri ona tətbiq edilmək şərtilə müəyyən olunmuş qaydada və müvafiq yerdə saxlanılıb, ona qarşı nə beynəlxalq, nə də insani qanunlara zidd olan hərəkətlər tətbiq edilməyib.

Üçüncüsü, o müvafiq beynəlxalq təşkilatların qayğısı ilə əhatə edilib, onunla bağlı həyata keçirilən bütün tədbirlər həmin təşkilatların nəzarəti altında icra olunub.

Dördüncüsü, A.İnciqulyan və onunla bir yerdə saxlanılan digər 5 nəfər Ermənistan vətəndaşından ibarət ailənin Ermənistana geri qaytarılması barədə rəsmi Bakının dəfələrlə və təkidlə beynəlxalq təşkilatlar, o cümlədən, erməni tərəfi qarşısında məsələ qaldırmasına baxmayaraq, hər dəfə rəsmi Yerevanın hərbi-siyasi rejimi öz vətəndaşlarına qarşı etinasızlıq nümayiş etdirərək onların taleyinə biganə münasibət sərgiləyib. Bu səbəbdən də hazırda Azərbaycanda saxlanılan ermənilər Ermənistandan imtina edərək üçüncü ölkədə sığınacaq tapmaq niyyətindədirlər.

Beşincisi, erməni mətbuatının yaydığı şəkillərdə gümrah və sağlam A.İnciqulyanla guya "ona qarşı Azərbaycanda təzyiqlərin və işgəncələrin verilməsi" fikri arasında uyğunsuzluğu açıq aydın görünür və bu ermənilərin növbəti uydurması kimi qiymətləndirilməlidir.

Altıncısı, beynəlxalq təşkilatın himayəsi altında olan və bu kimi şəxslər barədə konfidensial hesab edilən məlumatların, konkret olaraq hansı ölkəyə verilməsi kimi informasiyanın gizli saxlanılması tələb olunsa da, bu barədə məlumatın Ermənistan tərəfinə ötürülməsi də xeyli şübhə doğuran məqamlardandır.

Sonuncusu və ən əsası. Şübhə yox ki, A.İnciqulyanın yerini müəyyənləşdirən, bu məqsədlə kriminal qruplaşmalarla sıx əlaqədə olan erməni diasporunun xidmətlərindən istifadə edən Ermənistan tərəfi, onun ailə üzvlərinə və yaxınlarına təzyiq göstərməklə Yerevana guya könüllü olaraq geri qayıtdığını deməyə məcbur ediblər.

Müdafiə Nazirliyi bir daha bildirir ki, A.İnciqulyanın Yerevan aeroportunda əvvəlcədən hazırlanmış formada təmtəraqlı qarşılanması, Azərbaycana qarşı nifrət, Ermənistana isə məhəbbət dolu müsahibəsi, bu prosedurların erməni kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılması, onun yenidən orduya qayıdaraq xidmətinin qalan hissəsinin də çəkilməsi kimi gülünc təşəbbüslə çıxış etməsi eyni mərkəzdən, özü də Ermənistanın xüsusi xidmət orqanları tərəfindən ssenariləşdirilən və həyata keçirilən növbəti şoudur.

## **Aureliya Qriqoriu:** Dünya ictimaiyyətinin beynəlxalq terrorizmə qarşı mübarizəsi Qarabağın işğaldan azad edilməsindən başlamalıdır

“Dördüncü Bakı Humanitar Forumu da Azərbaycanda təşkil edilən digər beynəlxalq tədbirlər kimi çox yüksək səviyyədə keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimindəki nitqində çox aktual məsələlərə toxundu”.

Bu sözləri IV Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Moldova parlamentinin ombudsmanı Aureliya Qriqoriu AzərTAc-a müsahibəsində deyib.

Qonaq bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev çox dəqiq və lakonik şəkildə beynəlxalq terrorizmə qarşı mübarizədə ölkənin və beynəlxalq ictimaiyyətin qarşısında duran vəzifələri diqqətə çatdırıb. Prezidentin fikirləri Forumun rəsmi açılışında çıxış edənlər tərəfindən də dəstəkləndi. Onlar da Azərbaycanın ermənilər tərəfindən zəbt edilmiş ayrılmaz hissəsi olan Dağlıq Qarabağın və ona bitişik rayonların azad edilməsini xüsusi qeyd etdilər. Hesab edirəm ki, dünya ictimaiyyətinin beynəlxalq terrorizmə qarşı mübarizəsi Qarabağın işğaldan azad edilməsindən başlamalıdır.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri təyyarələrinin döyüş atışlı təlimlərini izləyib







***Oktyabrın 1-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimlərinə nəzarət məqsədilə aviasiya vasitələrinin uçuşlarının keçirildiyi poliqonda olub.***

MiQ-29 və F-16 qırıcı təyyarələri şərti hava döyüşlərini imitasiya etməklə müxtəlif manevrlər yerinə yetirərək praktik təlim-döyüş uçuşları tapşırıqlarını icra ediblər.

Yer hədəflərinin məhv edilməsi məqsədilə icra olunan atışları yerinə yetirən MiQ-29 təyyarələrinə F-16 qırıcıları havadan dəstək veriblər.

Təlimlərin gedişindən razı qalan Müdafiə naziri təlimlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişi ilə həyata keçirildiyini bildirib. "Bundan əvvəl də Azərbaycan və Türkiyə hərbçilərinin birgə təlimləri keçirilib. Həm qardaş Türkiyədə, həm də Azərbaycanda müxtəlif qoşun növlərinin iştirakı ilə təlimlər olub. Ancaq hər iki dövlətin Hərbi Hava Qüvvələrinin birgə təlimləri və özü də Azərbaycanda keçirilməsi ilk dəfədir ki, baş tutur. Çox vacib bir məsələ ondan ibarətdir ki, Azərbaycan və Türkiyə hərbi pilotları birgə döyüş tapşırıqlarını yerinə yetirərkən, bir-birini sığortalamaqla, bir-birinə döyüşdə dəstək verməklə təlimlər keçiriblər. Mən bu təlimləri yüksək qiymətləndirirəm. Biz belə təlimləri daha geniş səviyyədə davam etdirəcəyik", - deyə Müdafiə naziri xüsusi qeyd edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Ehtiyatda və İstefada Olan Zabitlərin Təşkilatlarının Beynəlxalq Məsləhətləşmə Komitəsinin nümayəndə heyətilə görüş keçirilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının dəvətilə ölkəmizə səfərə gəlmiş Ehtiyatda və İstefada olan Zabitlərin Təşkilatlarının Beynəlxalq Məsləhətləşmə Komitəsinin nümayəndə heyətilə görüş keçirilib. Qonaqlara əvvəlcə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi barədə məlumat verilib.***




Sonra nümayəndə heyətinin rəhbəri Aleksandr Kanişin qonaqpərvər qəbula görə Müdafiə nazirliyinin rəhbərliyinə minnətdarlığını çatdırıb. O, hazırda Komitənin təşkilatçılığı ilə "Müharibələrsiz və hərbi münaqişələrsiz dünya" adlı sənədli filmlər və televiziya proqramları festivalının keçirildiyini və festivala Bakıda yekun vurulması haqda qərar qəbul edildiyini bildirib.

Sonra general-leytenant K.Vəliyev Komitənin fəaliyyətinin xeyirxah məqsəd daşıdığını, onun veteran təşkilatları arasında humanitar əlaqələrin möhkəmləndirilməsinə müsbət təsir göstərdiyini qeyd edib.

Görüşdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Rüfət Əmirov, Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev, ehtiyatda olan polkovnik Cəlil Cəlilov iştirak ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
foto
Vüsal HƏMİDOVUNDUR**



# Respublika Veteranlar Təşkilatının sədrinə və bir neçə üzvünə "Zabit həmrəyliyi medalı" təqdim edilib

***Ölkəmizdə səfərdə olan Ehtiyatda və İstefada Olan Zabitlərin Beynəlxalq Məsləhətləşmə Komitəsinin rəhbəri Aleksandr Kanişinin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 2-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rəyasət heyətinin üzvləri və aparat əməkdaşları ilə görüşüb.***

AzərTAc xəbər verir ki, görüşdə nümayəndə heyətinin rəhbəri Aleksandr Kanişin Azərbaycana səfərə gəldiyinə görə çox xoşbəxt olduğunu deyib. O qeyd edib ki, Azərbaycan qonaqpərvər ölkədir və bu diyar gündən-günə gözəlləşir, inkişaf edir.

Komitənin tarixi və fəaliyyəti barədə məlumat verən A.Kanişin deyib ki, dörd ildir yaranan qurumun 30 ölkədən üzvü var. Təşkilatın tərkibində Beynəlxalq Hərbi Fəlsəfə Birliyi yaradılıb ki, onun da məqsədi tarixi müharibələri təhlil və müzakirə etməkdir.

Qeyd edilib ki, Komitə "Müharibələrsiz və hərbi münaqişələrsiz dünya" adlı sənədli filmlərin və televiziya proqramlarının festivalını keçirir. Bakının film festivallarının keçirmə təcrübəsi olduğu üçün bu festivalın yekununu Azərbaycan paytaxtında keçirilməsi planlaşdırılır.

Qonaq xüsusi vurğulayıb ki, Azərbaycan ilk dəfə keçiriləcək Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Bildirib ki, Azərbaycanın bu oyunları yüksək səviyyədə təşkil edəcəyinə heç kimin şübhəsi yoxdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunan qonaq problemin sülh yolu ilə həll olmasının vacibliyini qeyd edib.

Sonra Aleksandr Kanişin komitənin "Zabit həmrəyliyi medalı"nı Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayevə və təşkilatın bir neçə üzvünə təqdim edib.

Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev qurumun fəaliyyəti, gördüyü işlər barədə qonaqlara ətraflı məlumat verib.

Prezident İlham Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan D.Rzayev bildirib ki, dövlətimizin başçısı həmişə Böyük Vətən müharibəsinin iştirakçıları ilə görüşərək onların problemləri ilə maraqlanıb.

Qonaqların diqqətinə çatdırılıb ki, ölkəmizdə veteranlara, hərbçilərə və onların ailələrinə dövlət tərəfindən daim qayğı göstərilir.

Sonra qonaqlara təşkilatın adından diplom və qiymətli hədiyyələr təqdim edilib.

# Azərbaycanın işğal edilmiş əraziləri ilə bağlı sənədin hazırlanması üçün AŞPA-da məruzəçi təyin edilib

***Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Elxan Süleymanovun təqdim etdiyi "Azərbaycanın Dağlıq Qarabağ regionu və işğal edilmiş digər ərazilərində gərginliyin artması" adlı məruzənin hazırlanması üçün oktyabrın 1-də qurumun siyasi məsələlər komitəsinin iclasında məruzəçi təyin edilib. Yeni məruzəçi britaniyalı deputat Robert Volterdir.***

***Bu barədə AzərTAc-a Elxan Süleymanov məlumat verib.***

E.Süleymanov deyib: "Ümid edirik ki, məruzəçi Ermənistan hakimiyyətinin, AŞPA-dakı ermənipərəst qüvvələrin, ermənipərəst güc mərkəzlərinin təzyiqlərinə baxmayaraq obyektiv məruzə hazırlayacaq, Ermənistanın işğalçı dövlət olduğunu və işğal etdiyi ərazilərdə mülki əhaliyə qarşı kütləvi şəkildə cinayətlər törətdiyini bir daha dünya ictimaiyyətinə çatdıracaq, məruzənin qətnamə hissəsində ilk dəfə olaraq işğalçı Ermənistana qarşı konkret sanksiyaların tətbiq olunmasını tələb edəcək".

Deputat deyib ki, ermənilər ənənələrinə sadiq qalaraq iclasda məruzənin müzakirələrdən çıxarılması və ya adının dəyişdirilməsi ilə bağlı təklif irəli sürdülər. Komitə üzvlərinin əksəriyyəti bu təklifin əleyhinə səs verdilər. Komitənin yalnız bir neçə ermənipərəst üzvündən dəstək alan Ermənistan nümayəndə heyəti payız sessiyasının gedişi zamanı növbəti dəfə məyus oldular və zalı tərk etdilər.

# Azərbaycanla Birləşmiş Krallıq arasında hərbi əməkdaşlıq Planı imzalanıb

***Oktyabrın 3-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında Qərargah danışıqları keçirilib.***



Tədbirdə iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə olunub, regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

Danışıqların yekunu olaraq "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında 2015/16-cı maliyyə ili üzrə hərbi əməkdaşlıq Planı" imzalanıb.

Sənədi Azərbaycan tərəfdən Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov, Birləşmiş Krallıq tərəfdən isə Müdafiə Nazirliyinin NATO və Geniş Avropa İdarəsinin İkitərəfli Əlaqələr Qrupunun rəhbəri xanım Debbi Brazers imzalayıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Financial Times" qəzetində Azərbaycanın Böyük Britaniyadakı səfirinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cavab məktubu dərc edilib

Bu günlərdə Böyük Britaniyanın "Financial Times" qəzetində Azərbaycan ilə bağlı məqalə dərc edilmişdi. Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətə uyğun olmayan bəzi məqamların yer alması Azərbaycan tərəfinin kəskin etirazına səbəb olub.

Qəzetdə Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin həmin yazıya cavab məktubu dərc edilib.

Cavab məktubunda deyilir ki, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın "mübahisəli ərazi" adlandırılması həqiqətə uyğun deyil. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir və hazırda 7 ətraf rayonu ilə birgə Ermənistanın işğalı altındadır. Bu fakt hər zaman nəzərə alınmalıdır və həqiqətdən yayınmaq olmaz.

Səfir bildirib ki, Dağlıq Qarabağda hazırda beynəlxalq legitimliyi olmayan işğalçı, separatçı rejim fəaliyyət göstərir və nəticədə yüz minlərlə soydaşımız yurd-yuvalarından didərgin salınıb. Bu ərazini "mübahisəli ərazi" adlandırmaq legitimlik qazanmağa cəhd edən separatçıların xülyasıdır və onlar əzəli torpaqlarımızda etnik təmizləmə siyasəti aparırlar.

Diplomat məktubunun sonunda qəzetin ölkələrin ərazi bütövlüyü və suverenliyi məsələsinə hər zaman həssaslıqla yanaşdığından xəbərdar olduğunu ifadə edir və mətbuat qurumunu, Azərbaycan da daxil olmaqla, bütün hallarda eyni həssaslığı göstərməyə səsləyir.

**AzərTAc**

# Zabit və əsgərlərə bayram sovqatı

***"N" hərbi hissəsi bayramsayağı bəzədilmişdi. Sıra meydanında böyük canlanma var idi. Bu canlanma, bu təntənə səbəbsiz deyildi. Bu gün hərbi hissədə Səbail rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə Qurban bayramı keçirilirdi. Mərasimə ictimaiyyətin nümayəndələri də dəvət olunmuşdu.***



Tədbiri zabit Namiq Əfəndiyev açaraq iştirakçıları salamladı, zabit və əsgərlərin Qurban bayramını təbrik etdi. Onlara gələcək xidmətlərində böyük uğurlar arzuladı.

Sonra çıxış etmək üçün söz zabit Sadiq Mehralıyevə verildi. O, ilk olaraq mərasim iştirakçılarını salamladı, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə ünvanladığı təbrikini oxudu.

Səbail rayon İcra Hakimiyyəti başçısının Badamdar qəsəbəsi üzrə nümayəndəsi Zaur Əliyev, 236 nömrəli orta məktəbin direktoru Xanlar İmaməliyev, zabit Pənah Abdullayev, Səbail rayon İcra Hakimiyyətinin nümayəndəsi Pərvanə Kazımzadə, 239 nömrəli orta məktəbin nümayəndəsi Nizaməddin Məsmalıyev və başqaları çıxış edərək şəxsi heyəti Qurban bayramı münasibətilə təbrik etdi, xidmətdə böyük uğurlar arzuladı.

Xidmətdə fərqlənən əsgərlər bu əlamətdar gündə də unudulmadı. Üzərinə düşən əmr və tapşırıqları qüsursuz yerinə yetirən əsgərlərə Səbail rayon İcra Hakimiyyətinin nümayəndələri tərəfindən qiymətli hədiyyə və mükafatlar təqdim olundu.

Vətən qarşısındakı xidməti vəzifələrini uğurla başa vuran əsgərlər də bu əlamətdar gündə ordu sıralarından tərxis olundular.

Hərbi biletlərlə yanaşı, nümunəvi xidmət etdiklərinə görə onlara xidməti xasiyyətnamələr də təqdim olundu. Əsgərlərə hərbi biletləri zabitlərdən Namiq Əfəndiyev, Sadiq Mehralıyev, Pənah Abdullayev, Kamran Nəsibov və başqaları təqdim etdilər.

Qurban bayramı günü münasibətilə qurbanlıq qoyunlar da kəsildi. Kəsilmiş bu qoyunlar bişirilib nahar yeməyində əsgərlərə veriləcəkdir.



Zabit Namiq Əfəndiyev sonda çıxış edərək Qurban bayramı ərəfəsində belə gözəl tədbiri təşkil etdiklərinə görə Səbail rayon İcra Hakimiyyətinə və onun nümayəndələrinə şəxsi heyət adından dərin minnətdarlığını bildirdi.



Qurban bayramı münasibətilə keçirilən tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra bədii hissəsi başladı. Badamdar mədəniyyət evinin ansamblı, həmçinin 3 nömrəli musiqi məktəbinin solistləri şəxsi heyət qarşısında geniş konsert proqramı ilə çıxış etdilər. Müğənnilər bir-birindən gözəl mahnılar ifa edərək zabit və əsgərlərə mənəvi zövq verdilər.

Hərbi hissənin şəxsi heyəti əlamətdar və yaddaqalan bir gün yaşadı.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan Respublikasının kütləvi informasiya vasitələri həmişə olduğu kimi növbəti dəfə özlərinin qeyri-hökumət təşkilatları, sosial mediaları vasitəsilə Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında erməni ictimaiyyəti üçün dezinformasiya xarakterli məlumatlar yaymaqda davam edir.

Cari ilin iyul-avqust aylarında erməni kəşfiyyat-təxribat qruplarının mövqelərimizə hücum etmək cəhdlərinin qarşısının alınması zamanı ölü və yaralı olaraq 70-dək itki verən erməni tərəfi ordumuzun onlara vurduğu sarsıdıcı zərbədən hələ də özlərinə gələ bilməyərək itkilərini gizlətməkdə davam edirlər.

Ermənistan Respublikasında hakimiyyətə qarşı başlanan kütləvi aksiyalardan, daxili çəkişmələrdən qorxuya düşən cinayətkar Yerevanın hərbi-siyasi rejimi cəbhədə verdiyi itkiləri azaldaraq, əhalinin fikrini yayındırmaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin itkiləri və atəşkəs rejiminin pozulması haqqında təxribat və dezinformasiya xarakterli şişirdilmiş məlumatlar yaymaq vərdişindən əl çəkmir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, müdafiənin ön xəttində yerləşən bölmələrimiz erməni tərəfinin istənilən təxribatının qarşısını almağa və onu darmadağın etməyə hazırdır. Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda həmişə döyüşə hazır olan əsgər və zabitlərimiz Müdafiə nazirinin əmrinə əsasən, şəhid olan və yaralanan hər bir hərbçimizin qisasını düşməndən birə on qat artıqlaması ilə alırlar və bundan sonra da alacaqlar.

* * *

Sentyabrın 19-dan başlayan Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri oktyabrın 3-də başa çatıb.

* * *

***3 oktyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Çinari, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əlibəyli və Ağdam kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Qızıl Oba, Çaylı, Göyarx, Ağdam rayonunun Sarıcalı, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən XXIX dərs

*(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

**Mövzu:** ***Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.***

***İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.***

**Suallar:**

**1. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.**

**2. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət.**

### *Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları*

Müharibə - dövlətlər, xalqlar və sosial qrupların münasibətinin dəyişməsi, siyasi-iqtisadi və digər məqsədlərə nail olmaq üçün zorakılıq vasitələrinin tətbiqi ilə bağlı çox mürəkkəb və çoxcəhətli ictimai-siyasi hadisədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəşəriyyət tarixi müharibələrlə zəngindir və bu gün də müasir dünyada bəzən siyasi qərarların həllində zor tətbiq edilməsi hallarına rast gəlmək olur. Müharibələrin qarşısını almaq mümkün olmasa da, dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul edilmiş, beynəlxalq konvensiyalarda öz əksini tapmış hüquq qaydaları mövcuddur. Bu qaydalar beynəlxalq humanitar hüququn əsasını təşkil edir.

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir sahəsi olub, həm beynəlxalq silahlı münaqişələr, həm də qeyri-beynəlxalq silahlı münaqişələrlə əlaqədar beynəlxalq hüququn subyektləri arasında yaranmış münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi insanların və əmlakın mühafizəsi və müharibənin aparılmasının üsul və vasitələrinin məhdudlaşdırılması sahəsindəki münasibətləri tənzimləyən, həmçinin onun norma və prinsiplərinə görə məsuliyyəti müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusudur. Beynəlxalq humanitar hüquq silahlı münaqişə yarandıqda fəaliyyətə başlayır. Beynəlxalq humanitar hüququn obyektini silahlı münaqişənin gedişində döyüşən tərəflər arasında yaranan ictimai münasibətlər təşkil edir.

**Beynəlxalq humanitar hüququn əsas prinsipləri**

- hərbi zərurət və ictimai qaydanın qorunması həmişə insana hörmətlə uzlaşdırılmalıdır;
- sıradan çıxarılmış şəxslər, həmçinin bilavasitə döyüşlərdə iştirak etməyənlər hörmət, müdafiə və humanitar hüquqa malikdirlər;
- münaqişədə olan tərəflərin hərbi əməliyyatlar aparmaq metod və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir.

Beynəlxalq humanitar hüququn tətbiqi prinsipləri:

**Toxunulmazlıq prinsipi**

Bu prinsipə əsasən:
- döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşənlərin həyatının mühafizə olunmaq hüququ vardır. Açıq surətdə tabe olan (əsir düşən) şəxsləri öldürmək olmaz;
- işgəncə, alçaldıcı və qeyri-insani cəza qadağan olunur;
- hər bir kəsin qanun qarşısında insan hüquqlarının tanınması hüququ vardır;
- hər bir kəsin onun şərəfinə, ailə hüquqlarına, əqidəsinə və adətlərinə hörmət hüquqları vardır;
- əzab çəkən hər kəsə və onun konkret fiziki-psixoloji vəziyyətində zəruri olan qulluq göstərilməlidir;
- hər bir kəsin ailəsi ilə əlaqə saxlamaq və kömək almaq hüququ vardır;
- heç kim qanunsuz yol ilə mülkiyyətindən məhrum edilə bilməz.

**Müdafiə prinsipi**

Dövlət onun əlinə keçmiş şəxsin istər milli, istərsə də beynəlxalq səviyyədə hüququnu təmin etməlidir. Əsir onu tutmuş qoşunların deyil, onların tabe olduqları dövlətin ixtiyarındadır. Düşmən dövlət əsir götürdüyü şəxslərin şəraiti və saxlanmasına görə, işğal etdiyi ərazidə isə ictimai asayişin və xidmət sahələrinin qorunmasına görə məsuliyyət daşıyır.

**Müharibə hüququna aid prinsiplər**

- müharibə edən tərəflər mülki əhali və mülki obyektləri qorumaq üçün həmişə mülki əhali və kombatantları (döyüşənləri) fərqləndirməlidir;
- əsas məqsədi mülki əhalini qorxuya salmaq olan zorakılıq aktları ilə hədələmə qadağan olunur;
- münaqişə edən tərəflər mülki əhalini qorumaq və ya heç olmazsa mülki əhali arasında təsadüfi itkilər və ya təsadüfi zərərdən imkan daxilində qaçmaq üçün mümkün olan bütün ehtiyat tədbirlərini görməlidir;
- yalnız Silahlı Qüvvələrin heyətinə daxil olan şəxslər düşmən üzərinə hücum edə və ona müqavimət göstərə bilərlər;
- müdafiə olunmayan yerlərə hücum etmək qadağandır;
- elmi tədqiqatlar aparılan və ya xeyriyyə təşkilatları yerləşən binalara və xalqların mədəni və mənəvi irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və dini ibadət yerlərinə yönəlmiş hər hansı düşmənçilik hərəkətinə yol verilməsi qadağandır;
- qurğu və tikililərə, onlardan mülki əhaliyə təhlükə yarana biləcəyi halda, hücum etmək qadağandır;
- mülki əhali hərbi obyektlərin hücumlardan müdafiəsi üçün istifadə edilə bilməz;
- mülki obyektlər hücum obyekti ola bilməz. Mülki əhalinin yaşaması üçün zəruri olan obyektləri məhv etmək və ya başqa yerə köçürmək qadağandır;
- qarət qadağandır.

Hərbi əməliyyatlar aparılmasının metod və vasitələrinə görə, məhdudiyyət prinsipinin mahiyyəti ondan ibarətdir ki, hərbi əməliyyatları kiməsə lüzumsuz zərər vura və ya həddən artıq əzab verə biləcək silah və ya metodlardan istifadə etməklə aparmaq qadağandır. Həmin prinsipə əsasən:
- hədəflərə fərq qoymadan edilən hücumlar qadağandır;
- mülki əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır;
- hərbi əməliyyatlar zamanı təbii mühitin qorunması üçün qayğı göstərilməlidir;
- mülki əhali arasında müharibə aparmaq metodu kimi aclıqdan istifadə etmək qadağandır;
- xəyanətə əsaslanan hərbi əməliyyatlar qadağandır.

Qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüququn prinsipləri ilə Beynəlxalq Qırmızı Xaçın prinsiplərini (humanitar, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllülük, vahidlik, universallıq) bir-birinə qarışdırmaq olmaz. Qırmızı Xaçın prinsipləri 1965-ci ildə Vyanada keçirilən Qırmızı Xaçın XX Beynəlxalq konfransında qəbul edilmiş bəyannamədə öz əksini tapmışdır. Beynəlxalq humanitar hüququn prinsiplərinin mənbəyini isə beynəlxalq müqavilələr və konvensiyalar təşkil edir. Qırmızı Xaçın prinsipləri qeyri-hökumət təşkilatı olaraq Qırmızı Xaçın fəaliyyəti üçün əsas istiqamət kimi çıxış edir. Beynəlxalq humanitar hüququn prinsipləri isə silahlı münaqişə zamanı döyüşən tərəflər arasında münasibətləri tənzimləyir.

### *Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün qanunvericilik aktları beynəlxalq hüququn normalarına uyğunlaşdırılmışdır. O cümlədən də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 116-cı maddəsilə silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə cinayət məsuliyyəti müəyyən edilib.

Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmaq dedikdə aşağıdakılar nəzərdə tutulur:
- mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;
- ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;
- sülhməramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardım göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qızıl Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmə;
- hərbi əməliyyatların aparılma üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmə;
- yetkinlik yaşına çatmayanları Silahlı Qüvvələrə cəlb etmə;
- hərbi zərurətdən irəli gəlməyən genişmiqyaslı dağıntılar törətmə;
- müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə;
- hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə;
- müvəqqəti barışıq haqqında, yaxud həlak olanların və ya yaralıların döyüş meydanından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozma;
- mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə;
- hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma;
- dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə;
- hərbi əməliyyatlarda birbaşa iştirakını aşkar surətdə dayandırmış, həmçinin silahlı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmə;
- işğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmə;
- hərbi əsirlərin və mülki şəxslərin Vətənə qaytarılmasını əsassız olaraq gecikdirmə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmə.

Yuxarıda göstərilən hüquq pozuntularına görə yeddi ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir.

Humanitar hazırlıq qrupunun rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha xatırlatmalıdır ki, Ermənistanın silahlı qüvvələri 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal etməyə müvəffəq olmuşdur. Bu işğalın səbəbləri və nəticələri haqqında əvvəlki humanitar hazırlıq dərslərində ətraflı məlumatlar verilmişdir. Ancaq qeyd etmək lazımdır ki, ermənilərin öz işğalçılıq planlarını həyata keçirərkən həm dinc əhaliyə, həm də yaralanmış və əsir düşmüş döyüşçülərimizə qarşı törətdikləri vəhşiliklər II Dünya müharibəsində faşistlərin törətdikləri vəhşiliklərlə müqayisədə daha dəhşətlidir. Burada qrup rəhbəri dinləyicilərə 26 fevral - Xocalı faciəsini xatırlatmalıdır.

Azərbaycan Respublikasının rəhbərliyi dəfələrlə bütün dünyaya bəyan etmişdir ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin dinc yol ilə həllinin tərəfdarıyıq. Lakin Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsə, Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

İlham Əliyev cənabları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi fəaliyyətə başladığı ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq söylədiyi **"Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir"** sözləri ilə bu gün Azərbaycan ordusunda xidmət edən hər bir vətəndaşın qarşısında ən mühüm bir vəzifəni - Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaq vəzifəsini qoymuşdur.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

# Müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların yolasalma mərasimi keçirilib

***Oktyabrın 1-də Beyləqan rayonundakı Heydər Əliyev meydanında Azərbaycan Silahlı Qüvvələri sıralarından ehtiyata buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının yola salınması mərasimi keçirilib.***

Mərasim təntənəli marşın sədaları altında dövlət bayrağının meydana gətirilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoyublar. Respublikamızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Mərasimdə Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə müddətli həqiqi hərbi xidmətə çağırılan və müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçulara Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini oxuyub.



Beyləqan və Xocavənd rayonları icra hakimiyyətlərinin başçıları Vaqif Abdullayev və Eyvaz Hüseynov, o cümlədən Ağcabədi və Füzuli rayon icra hakimiyyətlərinin və rayon ictimaiyyətinin nümayəndələri ordu quruculuğunda qazanılan uğurlardan, Azərbaycan əsgərlərinin mərdlik və şücaətindən danışıblar.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində mühüm işlər görülür. Ən əsası ordunun döyüş ruhu, mənəvi əhval-ruhiyyəsi və ordu ilə xalqın monolit birliyi mövcuddur. Xalq öz ordusuna inanır və ona güvənir.



Çıxış edənlər xidməti başa vuran hərbi qulluqçulara Vətənə şərəflə xidmət etdikləri üçün təşəkkür edərək, ölkəmiz naminə layiqli vətəndaş olmağı, gənc əsgərlərə isə Silahlı Qüvvələrimizin döyüş salnaməsinə parlaq səhifələr yazmağı, xalqımıza qələbə sevincini yaşatmağı arzulayıblar.

Şəhid atası Cəbrayıl Məmmədovun çıxışı maraqla qarşılandı və dinləyənləri təsirləndirdi. O, əminliklə bildirdi ki, şəhidlərimizin qisası tezliklə alınacaqdır.

Tədbirdə hərbi xidməti başa vurmuş əsgər Zahid Şirinov silah və dəbilqəsini gənc əsgər Orxan Məmmədova əmanət etdi.

Sonda müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçulara Beyləqan, Ağcabədi, Xocavənd və Füzuli rayonları icra hakimiyyətləri rəhbərliyi və yerli əhali adından minnətdarlıq əlaməti olaraq hədiyyələr, hərbi hissə komandanlığının fəxri fərman, təşəkkür və valideynlərə minnətdarlıq məktubları təqdim edildi.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

---

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 10 sentyabr 2014-cü il tarixli Sərəncamına uyğun olaraq, "N" hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların yolasalma mərasimi keçirilib.***



Mərasimdə hərbi hissə komandanlığı, Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavinləri, rayonun dövlət və ictimai təşkilatlarının rəhbərləri, müharibə veteranları, məktəblilər iştirak ediblər. Tədbirin əvvəlində hərbi hissə komandanlığı, ehtiyata buraxılan əsgərlər və qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsinin önünə əklil və çiçəklər qoyublar. Təntənəli tədbir Dövlət himninin ifası ilə açıq elan edildikdən sonra ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən polkovnik Elşad Əbilov şəxsi heyətə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və birlik komandirinin təbrikini çatdırıb.

Tədbirdə iştirak edənlərdən Şəmkir rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qüdrət Əliyev, Şəmkir rayon Heydər Əliyev mərkəzinin direktoru Məleykə Əlizadə, Şəmkir rayon Qadınlar Şurasının sədri Nüşabə Seyidova, Şəmkir rayon Əhməd Cavad adına orta məktəbin şagirdləri ehtiyata buraxılan hərbi qulluqçuları təbrik edərək, onlara xidmətlərinə görə minnətdarlıqlarını bildiriblər.

Tədbirin ən təsirli anlarından biri isə ehtiyata buraxılan əsgərin yenicə hərbi xidmətə gəlmiş əsgərə silahını və dəbilqəsini təntənəli surətdə təqdim etməsi olub. Sonra ehtiyata buraxılan hərbi qulluqçular arasında xidmətdə fərqlənənlərə fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olunub, əsgər valideynlərinə təşəkkür məktubları göndərilib.



Tədbir şəxsi heyətin tribunanın önündən təntənəli marşla keçidindən sonra, Şəmkir rayon Mədəniyyət evi əməkdaşlarının təqdim etdiyi geniş konsert proqramı ilə sona çatıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

---

***Hərbi xidmət hər bir gəncin həyatında silinməz izlər qoyur. Hərbi xidmət illəri xatirələrə dönür. Bu xatirələr, müqəddəs bir borcun yerinə yetirilməsi ilə bağlı olduğundan heç zaman unudulmur.***

Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, xidmət müddəti başa çatan hərbi qulluqçular ordu sıralarından tərxis olunur. Bu tədbir ayrı-ayrı hərbi hissələrdə təntənəli şəkildə qeyd olunur, müəyyən mənada tarixləşdirilir. Bir qədər kövrək, bir qədər həyəcanlı keçən tədbirdə deyilənlər yaddaşlara həkk olunur.

Belə bir tədbir Hərbi Dəniz Qüvvələrində də təşkil edildi. Tədbiri giriş sözü ilə HDQ komandanının müavini, I dərəcəli kapitan Natiq Bağırov açaraq tədbirin mahiyyətini açıqladı. Ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Dövlət himnimizin sədaları hamının ürəyini riqqətə gətirdi.

I dərəcəli kapitan Natiq Bağırov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordu sıralarından tərxis edilənlərə ünvanlanmış təbrikini oxudu. Təbrikin mətni gənc kursantlara da, ordu sıralarından tərxis olunanlara da könül xoşluğu verdi. Tərxis edilənlər Müdafiə nazirinin "Əminəm ki, siz mülki həyatda da orduda aldığınız təlim-tərbiyə və təcrübəni dövlətimizin daha da qüdrətlənməsinə, orduya vətənpərvər gənclərin hazırlanmasına həsr edəcək, orduda komandirlərin etimadlarını doğrultduğunuz kimi, arxa cəbhədə valideynlərinizin də ümidlərini doğruldacaq, ata-ananıza layiqli övlad, Vətənə layiqli vətəndaş olacaqsınız" sözlərini ən dəyərli tövsiyə bildilər.



Sonra xidmətdə fərqlənənlərə HDQ komandanının fəxri fərmanı təqdim edildi. Bu, həm də ona görə dəyərlidir ki, ehtiyata buraxılan matros illərlə bu fəxri fərmanın işığında daha yaxşı vətəndaş olmağa, dövlətə, dövlətçiliyə daha məsuliyyətlə xidmət etməyə çalışacaq. Necə deyərlər, bünövrəsi hərbi xidmət illərindən qoyulan mətin xarakter özünü mülki həyatda da doğruldacaq. I dərəcəli kapitan Natiq Bağırov fəxri fərmanları təqdim edəndə buna bir daha əmin olduğunu bildirdi.

Tərxis edilənlərə xidməti xasiyyətnamə verildi. Onu II dərəcəli kapitan Rasim Fərzəliyev təqdim etdi. Tərxis olunan matroslar adından çıxış edən matros Kəramət Məmmədov komandirlərinə, zabitlərə minnətdarlığını bildirdi, onları da, hərbi xidmət illərini də unutmayacaqlarını dedi. Səmimi idi. Bu səmimiyyətə inanmaq mümkünsüzdür...

Təntənəli keçid. Tərxis olunanlar üçün sonuncudur. Onların baxışlarındakı kövrəkliyin səbəbi də məhz budur.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

---

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Azərbaycan FİDE-nin yeni reytinq cədvəlində 13-cü pillədədir




Beynəlxalq Şahmat Federasiyası (FİDE) şahmatçıların yeni reytinq siyahısını açıqlayıb. AzərTAc xəbər verir ki, ölkələrin reytinq cədvəlində Azərbaycan 163 ölkə arasında 13-cü pillədədir. Dünyanın ilk 100 ən güclü şahmatçıları arasında 3 həmyerlimiz yer alıb. Təmsilçilərimizdən ən yüksək reytinqə malik Şəhriyar Məmmədyarov 2 pillə irəliləyərək 2764 əmsalla ilk onluqda qərarlaşıb. Teymur Rəcəbov 8 pillə irəliləyərək 2726 əmsalla 25-ci, Rauf Məmmədov 2667 əmsalla 80-ci pillədə qərar tutub. Blits üzrə isə beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov 2824 əmsalla 6-cı yerdə, Rauf Məmmədov 2767 əmsalla ilk onluqda qərarlaşıb. Teymur Rəcəbov isə 2715 əmsalla 34-cü yerdədir.

## "Qarabağ" ruhlar şəhərinin komandasıdır"




İtaliyanın məşhur idman qəzeti "La Gazzetta dello Sport" Azərbaycanın "Qarabağ" futbol klubu ilə bağlı maraqlı yazı dərc edib. "Qarabağ" ruhlar şəhərinin komandasıdır" sərlövhəli yazıda klubun fəaliyyəti ilə bağlı ətraflı məlumat verilir. Qeyd olunur ki, Ağdamın böyük hissəsini Ermənistanın işğal etməsindən sonra komanda ev oyunlarını Bakıda keçirməli olur. "Qarabağ" doğma məkanda son matçını 1993-cü ilin mayın 9-da "Xəzər"ə qarşı keçirib. Müəllif klubun yaranma tarixi, keçmiş və hazırkı oyunçuları, əldə etdiyi nailiyyətlər barədə də oxucuları ətraflı məlumatlandırıb.

## "Atletiko Madrid" "Yuventus"la oyuna "Azərbaycan" yazılı geyimdə çıxdı



UEFA Çempionlar Liqasının qrup mərhələsinin 2-ci turu çərçivəsində İspaniya çempionu "Atletiko Madrid" İtaliya çempionu "Yuventus"la qarşılaşıb. Madriddəki "Visente Kalderon" stadionunda keçirilən qarşılaşmada "Atletiko Madrid"in oyunçuları mundiala üzərində "Azərbaycan" yazılmış geyimdə çıxıb. Gərgin keçən qarşılaşmada İspaniya təmsilçisi rəqibinə 1:0 hesabı ilə qalib gəlib. Yeganə qolu oyunun 75-ci dəqiqəsində "Atletiko"nun türkiyəli futbolçusu Arda Turan vurub.

## Qadın voleybolçularımız dünya çempionatının ikinci qrup mərhələsində ilk oyununu keçirib



Azərbaycanın qadın voleybolçularından ibarət milli komandası İtaliyada keçirilən dünya çempionatının ikinci mərhələsində yerli komanda ilə qarşılaşıb. Millimiz İtaliya yığması ilə qarşılaşmadan 3-1 (25:19, 25:21, 21:25, 25:23) hesabı ilə məğlub ayrılıb. Qadın voleybolçulardan ibarət milli komandamız növbəti oyununu Dominikan Respublikasının yığmasına qarşı keçirəcək.

## "Baku Open-2014" Beynəlxalq şahmat festivalının qalibi bəllidir




Azərbaycanın dövlət müstəqilliyinin 23-cü ildönümünə həsr olunmuş ənənəvi "Baku Open-2014" beynəlxalq şahmat festivalı başa çatıb. AzərTAc xəbər verir ki, Azərbaycan ilə yanaşı, 22 ölkədən 250-yə yaxın şahmatçı qələbə uğrunda mübarizə aparıb. "A" (güclülər) turnirində Rusiya şahmatçısı Ernesto İnarkiyev və Rumıniya təmsilçisi Konstantin Lupulesku 7 xal toplayaraq 1-2-ci yerləri bölüşdürüblər. Üçüncü yerin sahibi isə 6,5 xal toplayan macarıstanlı Ferenc Berkes olub. Azərbaycan şahmatçılarından Nicat Məmmədov hesabına 5,5 xal yazaraq 13-17-ci yerləri bölüşdürüb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

---

Gizir Ələkbərov Qalib Əlizadə oğluna 2013-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 313
Nüsxə 4570